# Ulu öndərə sonsuz el məhəbbəti

## Qəbələdə ümummilli lider Heydər Əliyevin anım günü geniş qeyd olunub

(Əvvəli 4-cü səhifədə).

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş tədbir keçirilib.

Tədbiri giriş nitqi ilə açan turizm və otelçilik üzrə peşə tədris mərkəzinin direktoru Eyvaz Kazımov Azərbaycan dövlətçiliyinin söykəndiyi təməl prinsiplərinin



Heydər Əliyev tərəfindən yaradıldığını qeyd edib. Bildirilib ki, Heydər Əliyev özünün titanik fəaliyyəti və qətiyyətli qərarları ilə müstəqilliyimizin formalaşmasında, ölkədə sabitliyin əldə olunmasında, həmçinin, Azərbaycanın dünya ölkələri arasında nüfuzunun yüksəldilməsində müstəsna xidmətlər göstərib. Məhz buna görə də, xalqımız onu müasir müstəqil Azərbaycan dövlətinin memarı, qurucusu adlandırıb.

Heydər Əliyevin müdrikcəsinə söylədiyi "Azərbaycan dünyaya günəş kimi doğacaq" fikrini xatırladan natiq ümummilli liderin layiqli davamçısı Prezident İlham Əliyevin yorulmaz fəaliyyəti sayəsində bunun artıq reallıq olduğunu vurğulayıb.

Tədris mərkəzinin direktor müavini Reyhan Məmmədova ulu öndərin xalqımız qarşısında göstərdiyi misilsiz xidmətlərindən söz açaraq bu dahi şəxsiyyəti Vətənini hədsiz dərəcədə sevən, ölkəsinin tarixinə, milli dəyərlərinə son dərəcə böyük sevgi və hörmətlə yanaşan bir insan kimi səciyyələndirib. Qeyd olunub ki, müasir Azərbaycanın mürəkkəb və taleyüklü dövründə dövlətə rəhbərliyi öz üzərinə götürən Heydər Əliyev xilaskarlıq və quruculuq missiyasını şərəflə yerinə yetirməklə, nəinki xalqımızın ən parlaq siması, eləcə də dünya siyasi elitasının görkəmli şəxsiyyətlərindən biri kimi tarixdə silinməz iz qoyub.

Tədris mərkəzinin istehsalat təlim ustası Rəşad Şahverdiyev çıxışında ulu öndərin dövlətçilik səriştəsi və bacarığı sayəsində qarşıya çıxan bütün çətinliklərə baxmayaraq, Azərbaycanı olduqca mürəkkəb zamanın dalğaları arasından salamat çıxardığını, ona həm bölgədə, həm də dünyada layiqli yer qazandırdığını vurğulayıb.

Tədbirin sonunda tədris mərkəzi tələbələrinin ifasında ümummilli lider Heydər Əliyevə həsr olunmuş şeirlər səslənib.

**Aytac HƏMİDLİ,**
**tədris mərkəzinin əməkdaşı.**
**Səhrab Umuyev (foto).**

* * *

Leyla Əliyeva "Mənim Babam" şeirində ulu öndər Heydər Əliyevi belə tərənnüm etmişdir:

*Mənim babam gözəl insan,*
*Sevimlidir, mehribandır,*
*Yüz il, min il yaşayasan*
*Desəm, ona yenə azdır.*
*İnsan var ki, qəlbi qara,*
*Bəd əməli, bəd niyyəti,*
*Onlar hara, Babam hara...*
*Bir insandır ədalətli,*
*Öz xalqına sədaqətli,*
*Mənim Babam*
*Kömək edər, əl uzadar,*
*Dara düşsə bircə adam*
*Bax belə, bir ömür yaşar*
*Mənim məğrur,*
*Mənim əziz Heydər babam!*



11 dekabr 2018-ci il tarixdə Qəbələ şəhər 1 nömrəli tam orta məktəbində ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir bu şeirlə başlanmışdır. Məktəbin direktoru Məhəbbət Rüstəmova qeyd etmişdir ki, o kəslər tarixi şəxsiyyətə çevrilir ki, onlar tarixi yaratmağı bacarırlar. Öz dühası, qüdrətli əməlləri ilə mənsub olduğu xalqın milli sərvəti hesab olunan belə şəxsiyyətlər gecə-gündüz bilmədən əqidələri uğrunda mübarizə aparır. Belə şəxsiyyətlərdən biri də müasir Azərbaycanın banisi, xalqımızın ümumilli lideri Heydər Əliyevdir.

Heydər Əliyev birinci dəfə 1969-cu il ilin iyul ayında Sovet Azərbaycanında hakimiyyətə gələndə respublika iqtisadi və mədəni tənəzzül dövrünü yaşayırdı. O zaman məhz Heydər Əliyevin gəlişi ilə Azərbaycanda bütün sahələrdə sürətli yüksəliş, milli ruhun inkişafı və mənəviyyatın tərəqqisi dövrü başlanmışdır.

Heydər Əliyev ikinci dəfə müstəqil Azərbaycanda hakimiyyətə gələndə isə ölkəmizi vətəndaş müharibəsi təhlükəsindən, ictimai-siyasi pərakəndəlikdən qurtara və doğma xalqını yenidən vahid bir məfkurə ətrafında səfərbər edə bildi.

Ümummilli liderin parlaq xatirəsi xalqın yaddaşına əbədi həkk olunmuş və tariximizdə silinməz iz qoymuşdur.

*Arzusu, əməli, eşqi yolunda*
*Əritdi ömrünü gilə-gilə O,*
*Qəbrə qoyulmadı, ana torpağın,*
*Qovuşdu qoynuna gülə-gülə O.*

**Nurdanə ZEYNALOVA,**
**məktəb direktorunun müavini.**

## Səhiyyə ocaqlarında

Rayon mərkəzi xəstəxanasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım günü qeyd olunub.



Toplantıda çıxış edən RMX-nın baş həkimi Sabir Bayramov ulu öndər Heydər Əliyevin həyat yolundan söz açıb. Bildirilib ki, dövlətçiliyimizin möhkəmləndirilməsində, iqtisadiyyatın inkişafında, azərbaycançılıq məfkurəsinin bərqərar olmasında, respublikamızın dünya dövlətləri arasında layiqli yer tutmasında, o cümlədən diplomatiyamızın inkişafında ümummilli liderin misilsiz xidmətləri olub.

Qeyd olunub ki, ümummilli liderin siyasi xəttini layiqincə davam etdirən Prezidenti İlham Əliyevin yorulmaz fəaliyyəti sayəsində ölkəmiz sosial-iqtisadi cəhətdən sürətlə inkişaf edir, milli mənafelərimiz beynəlxalq aləmdə mövqeyini durmadan möhkəmləndirir.

Diqqətə çatdırılmışdır ki, son illər bütün sahələr kimi ölkə səhiyyəsi də böyük inkişaf yolu keçmiş, yüksək nailiyyətlər əldə olunmuşdur. Görülən işlər Azərbaycanın müstəqil dövlət kimi bir daha nüfuzunu və gücünü dünyaya nümayiş etdirir.

**"Qəbələ"**

* * *

Qəbələ Regional Müalicə Diaqnostika Mərkəzində ulu öndər Heydər Əliyevin anım günü ilə əlaqədar tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə açan mərkəzin baş həkimi Ceyhun Əhmədov ümummilli liderin həyatı və siyasi fəaliyyəti barədə məruzə etmişdir.

Tədbirdə mərkəzin kadrlar şöbəsinin müdiri Mahir



Kərimxanov, gənc həkim Səbinə Məmmədova çıxış edərək Heydər Əliyevin daim səhiyyənin inkişafına diqqətlə yanaşmasından, maddi-texniki bazasının möhkəmləndirilməsi və kadr potensialının daha da yaxşılaşdırılması istiqamətində gördüyü işlərdən söz açmışlar.

Qeyd olunub ki, dahi şəxsiyyətin təşəbbüsü ilə səhiyyə sahəsində aparılan islahatlar xidmətin keyfiyyətcə yaxşılaşmasına zəmin yaradıb. Ulu öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyilə bu gün Azərbaycan səhiyyəsində aparılan uğurlu islahatlar, tibb müəssisələrinin maddi-texniki bazalarının möhkəmləndirilməsi, təchizat və kadr hazırlığı ilə bağlı görülmüş böyük işlər bu sahəyə göstərilən diqqətin bariz nümunəsidir.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

## Mədəniyyət mərkəzində

Qəbələ Mədəniyyət Mərkəzində ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar "Heydər Əliyev Azərbaycan mədəniyyətinin hamisidir" adlı "dəyirmi masa" keçirilmişdir. Tədbiri giriş sözü ilə açan regional mədəniyyət idarəsinin baş məsləhətçisi Nargilə Qafarova ulu öndərin həyatı və siyasi fəaliyyəti haqqında geniş məlumat vermişdir.



Tədbirdə çıxış edənlər ümummilli lider Heydər Əliyevin milli mədəniyyətimizə göstərdiyi diqqət və qayğıdan, mədəniyyət sahəsinin inkişafı üçün həyata keçirdiyi məqsədyönlü tədbirlərdən danışmışlar.

**Anar RÜSTƏMLİ,**
**mərkəzin əməkdaşı.**